# PROLOQ

**19 mart 1969-cu il.**

Bir aydır General Stiven Rasmunsenin rəhbərlik etdiyi alay düşmən hücumuna məruz qalmayıb. Ortaboy, kök Adam Conson eynəyini qaldırıb gözlərini sildikdən sonra:

– İsa Məsih! Sən özün bizə kömək ol! – deyərək sinəsindən asdığı xaçı sıxdı.

Elə bu vaxt əsgərlərdən birinin səsi eşidildi:

– Uşaqlar! Diqqət! “Rahib” Conson bu gün də bizə həmişə olduğu kimi Bibliyadan ayələr deməyə hazırlaşır, – o bunu deyib əlindəki silahla Adama işarət etdi.

Bundan sonra gurultulu gülüşlər eşidildi. Adam Conson onlara məhəl qoymayaraq dualarına davam edirdi.

– Bu dəfə də bizi “Vəhy” bölməsi ilə heyran edəcəksiniz, elə deyilmi, müqəddəs ata?! – deyə Adama müraciət etdi. Katolik bir ailədə doğulmasına baxmayaraq, Hans Forstner dinə inanmırdı. Adam Conson duasını bitirdikdən sonra başını tərpətmədən sağ əlinin orta barmağı ilə Hansa işarət verdi. Ardınca əsgərlər yenidən gülüşdülər. Hans Forstner əhəmiyyət vermədən onlardan uzaqlaşdı.

Baş verənləri uzaqdan izləyən 41 yaşlı Stiven Rasmunsen əllərini sinəsində çarpazlayıb, dərindən ah çəkdi. Kommunizmin bu qədər geniş yayılması onu olduqca

narahat edirdi. Bu gün onlar Vyetnamda böyük bir təhlükə ilə üz-üzə idilər. Kambocada qırmızı kxmerlər[1], Almaniyada RAF[2] və dünyanın başqa yerlərində də müxtəlif kommunist qruplaşmaların olması generala rahatlıq vermirdi. Təxminən 6 il əvvəl Con Kennedinin qətli Amerikanın da qırmızı terror təhlükəsi ilə üz-üzə qaldığını göstərirdi.

– Hans! Belə bir zamanda da yumor hissinin itməməsi mənə olduqca təəccüblü gəlir. Lakin başqalarının inancını lağa qoymağın o qədər də yaxşı deyil. Unutma, bu gün İsa Məsih hələ də bizimlə olduğu üçün sağıq.

– Corci, – deyə Hans başını yelləyərək sərt baxışlarını Corc Hendriksə doğru dikdi, – mənim valideynlərim İkinci Dünya müharibəsi zamanı Almaniyadan qaçaraq Amerikaya gəlmişdilər. Onlar Hitler rejiminə qarşı olduqları üçün az qala öldürüləcəkdilər. Lakin xoşbəxtlikdən canlarını qurtara bildilər. Amerika Militarist Yaponiyasını məğlub etdikdən sonra Yaponiya terrorçu, Amerika isə xilaskar bir ölkə kimi görünməyə başladı. Lakin Amerikanın bu qələbəsi Xirosima və Naqasakidə milyonlarla günahsız insanın ölümü bahasına başa gəldi. Və Vyetmin[3] Vyetnamın müstəqilliyini elan etdikdə, Fransa bu ölkəni yenidən öz əsarəti altına almaq istədiyi zaman amerikanlar fransızlara yardım etdilər. Öz azadlığı uğrunda mübarizə aparan vyetnamlılar terrorçu, imperialist müstəmləkəçilər isə qəhrəman sayıldılar. Bu

---

[1] Qırmızı kxmerlər – Kambocalı kommunistlər.

[2] RAF – Qırmızı Ordu Fraksiyası (almanca "Rote Armee Fraktion"). 1968–1998-ci illərdə Qərbi Berlində fəaliyyət göstərmiş radikal solçu terror qruplaşması.

[3] Vyetmin – 1941-ci ildə Ho Şi Min tərəfindən Vyetnamın müstəqilliyi üçün yaradılmış siyasi-hərbi təşkilat.

gün də biz burada yanlış bir mübarizə aparırıq. Əgər İsa Məsih, doğrudan da, varsa, bu qədər haqsızlıqlara necə göz yuma bilər?!

Hansı diqqətlə dinləyən Hendriks az qala ona cavab verəcəkdi ki, birdən başını aşağı əyib əlinə baxdı. Hans onun əllərindəki qanı gördükdə həyəcanla, – Corc! – deyə qışqırdı. Hamı onlara baxdı. Sonra bir qədər uzaqdan silah səsi eşidildi. Vyetnamlılar uzun müddət sonra yenidən hücuma keçmişdilər. Amerikalı əsgərlər silahlarını götürüb özlərini qorumağa çalışdılar. Nə qədər qəhrəmancasına vuruşsalar da, vyetnamlıların sayca üstünlüyünə görə məğlub olduqlarını anlayıb geri çəkilməyə məcbur oldular.

**26 mart 1969-cu il.**

Düşmən hücumundan yaxa qurtarmış amerikalılar cəngəllikdə yeni bir təhlükə ilə – aclıqla üz-üzə qalmışdılar. Sağ qalmaq üçün əlindəki qidanı bir həftə boyu bölüşən əsgərlər tamam taqətdən düşmüşdülər. Əgər yaxın bir neçə gün ərzində cəngəllikdən çıxış yolu tapmasaydılar, ölü bədənləri gəmiricilərə yem olacaqdı.

Üç gün əvvəl hamının “Rahib” kimi tanıdığı Adam Conson izsiz-tozsuz yoxa çıxmışdı. Bu hadisə komandanın digər üzvlərini təşvişə salmışdı və artıq iki gün idi onları rahat yatmağa qoymurdu. Bir həftədir gündüzlər cəngəlliyin içi ilə irəliləyən, gecələri isə çadır qurub keşik çəkən əsgərlər iki gecə idi yatmırdılar. “Rahib” necə yoxa çıxmışdı? Yoxsa vyetnamlılar sağ qalmış amerikalı əsgərlərin izinə düşmüşdülər?

Hans çadırdan çıxaraq, çadırın qarşısında növbə çəkən yoldaşlarına dedi:

– Mən bir azdan qayıdacağam.

Ağaclardan birinin arxasına keçərək şalvarının qabağını açmağa hazırlaşırdı ki, birdən yarpaqların arasından xışıltı eşitdi. Bir az geriyə boylandıqdan sonra səs gəlmədiyinə əmin olub öz işini davam edirdi ki, xışıltı yenə eşidildi. Xışıldayan yarpaqlara doğru asta addımlarla yaxınlaşmağa başladı. Ürəyi o qədər sürətlə döyünürdü ki, az qala yerindən çıxacaqdı. Bu an ayağı nəyəsə ilişdi və əyilib yerə diqqətlə baxdı:

– Ola bilməz! Bu ki... – dedi və birdən...

Gecəyarı yağmağa başlayan yağış getdikcə daha da şiddətlənirdi. Göy guruldayırdı. Qarşıda onları yeni bir sınaq gözləyirdi...

# BİRİNCİ FƏSİL

## I BÖLÜM

**20 dekabr 2007-ci il.**

...Hər zaman yalnız səni sevəcəyəm... Kəskin külək Kasandranın saçlarını dalğalandırır. Yaşıl gözlərini yuxarı qaldırıb diqqətlə ona baxır... Qara saçları... İncə gülüşü... Bütün pisliklərdən uzaq məsum gözləri... Gözlənilmədən açılan atəş...

Elə bu an yuxudan oyandı. Saat 04:03 idi. Robert Zukerman təlaş içində ətrafa göz gəzdirdi. Yatağından qalxıb pəncərədən çölə boylandı. Sinoptiklərin verdiyi məlumata əsasən, bu həftə hava soyuq olacaqdı. Hətta qar gözlənilirdi. Bu saatda dan yeri ağarmazdı. 32 yaşlı leytenant pəncərə qarşısından çəkilərək əl-üzünü yumağa getdi və  güzgüdə diqqətlə öz simasına baxdı. Zaman hər şeyi gözlənilmədən dəyişmişdi. Son iki ildə tanınmaz hala düşmüşdü. Olduqca şən, böyük ümidlərlə yaşayan gənc bir daha heç vaxt içindən çıxa bilməyəcəyi bir bataqlığa düşmüşdü. İki il əvvəl baş verən o hadisədən sonra...

Yol boyu adəti üzrə kanalları dəyişərək dünyada baş verən yeniliklərlə tanış olurdu. O qədər də maraqlı məlumata rast gəlmədiyinə görə növbəti kanallara keçib mahnı dinləməyi qərara aldı. İlk “The Beatles” qrupunun “Norwegian wood” mahnısı səsləndi. Lakin tezliklə

kanalı dəyişdi. Növbəti mahnılar zövqünü oxşamadığına görə radionu söndürməyi düşündü. Az qala söndürəcəkdi ki, "Counting Crows-Colorblind" səsləndi. "Cruel intentions" filminin mahnısı onu bir neçə il əvvəlin xatirələrinə qaytardı. Həqiqi xoşbəxtliyi duyduğu o unudulmaz anlara...

Kasandra fon Hammersman... Bəlkə də, o gözəl hissləri bir daha heç bir qadın Robert Zukermana yaşada bilməyəcəkdi. Gənc leytenant onu son zamanlar tez-tez yuxularında görməyə başlamışdı. Bu gözəl hollandiyalı qızla tanışlıq onun həyatını tamamilə dəyişmişdi. Nyu-York Polis Departamentində işləyən zaman ona məşhur biznesmen Lüdviq fon Hammersmanın qətlini araşdırmaq həvalə olunmuşdu. 2000-ci illərin ən uğurlu biznesmenlərindən olan Hammersman işdən evə qayıtmağa hazırlaşarkən naməlum qatil tərəfindən güllələnərək öldürülmüşdü. Mərhumun qətli ilə bağlı onun yaxınlarını danışdıran gənc polis həyatını dəyişdirəcək o günü heç bir zaman unuda bilməzdi...

**Saat 05:36.**

Leyk Dairəsi Şerif Departamentinin qarşısına çataraq tünd-göy rəngli "Yaquar"ını departamentin qabağında saxladıqdan sonra diqqətini toplamağa çalışdı. Bir qədər özünə gəldikdən sonra maşından çıxıb iş yerinə doğru addımladı. Departament binasına daxil olduqdan sonra 40 yaşlarında olan uzunboy, arıq növbətçi Edmund Deniels:

– Sabahınız xeyir, leytenant Zukerman, – deyə dostyana bir tərzdə səsləndi.

Uzaqdan əl hərəkəti ilə qarşılıq verdi. Yoldaşından ayrıldıqdan sonra on il idi tək yaşayan Deniels sərgərdan

həyat keçirirdi. Normadan artıq içki içdiyinə görə serroza tutulmuş bu insanın ömrünün sona yetməsinə, bəlkə də, o qədər çox qalmamışdı.

İkinci mərtəbəyə qalxa-qalxa iş yoldaşları ilə salamlaşıb kabinetinə daxil oldu. Kompüterini işə salıb yaxın vaxtlarda baş verən cinayətləri gözdən keçirməyə başladı.

Nahar fasiləsi zamanı işçilər yeməkxanaya tələsirdilər. Payını aldıqdan sonra əyləşməyə yer axtaran leytenantı iş yoldaşları səslədilər:

– Hey, Robert! Bura gəl.

Robert Zukerman mayor Henk Hofmanın yanında əyləşərək yeməyə başladı. Alçaqboylu, qaraşın polis zabiti Rac Miritma nəyisə müzakirə edirdi:

– İki həftə öncə itkin düşmüş Elizabet Vornosun meyiti 4 gün əvvəl tapılıb. Qadını öldürən elə onun əri Maykl imiş. Maykl Vornos narkomanın, əyyaşın biri idi. O, narkotika alqı-satqısı ilə məşğul olduğuna görə dəfələrlə saxlanılıb. Öz yoldaşını da qısqanclıq zəminində qətlə yetirib.

Hind əsilli olmasına baxmayaraq, ingilis dilində səlis danışırdı. Üç il əvvəl Leyk Dairəsi Şerif Departamentində işə başlayan bu hindistanlı qısa vaxt ərzində həmkarlarının rəğbətini qazanmışdı. Olduqca aktiv, məsuliyyətli Rac Miritma baş vermiş hadisə ilə bağlı danışan zaman yoldaşları ona diqqətlə qulaq asırdı. Lakin onun dedikləri Robert Zukermanı o qədər də maraqlandırmırdı. O, yenə unudulmaz xatirələrə qayıtmışdı...

...Lüdviq fon Hammersmanın qətli ilə bağlı sorğu növbəsi onun gənc qızı Kasandraya gəlib çatmışdı.

Masa arxasında əyləşən Zukerman bir neçə dəqiqə əvvəl mərhum biznesmenin dostunu sorğuladıqdan sonra onun qızını gözləyirdi. Birdən qapı açıldı. Əynində qırmızı rəngli klassik şalvar, ağ uzunqollu köynək və ayağında qara dikdaban ayaqqabı olan ortaboy, arıq, uzun qara saçlı qız içəri daxil oldu. Stulu çəkərək masanın arxasında əyləşən qızcığaz gözlərini aşağı dikmişdi.

– Missis fon Hammersman, – deyə səsləndikdən sonra qız Robertə baxdı. Sanki onun nitqi tutuldu. Açıq-yaşıl gözləri və qar kimi ağ dərisi olan Kasandra gənc polisə kimisə xatırladırdı. O, həyatında çoxlu gözəl qadınlar görmüşdü, ancaq bu qız onda indiyədək heç kimin oyatmadığı fərqli hisslər oyatmışdı. Nə baş vermişdi axı? Ürəyi az qala yerindən çıxacaqdı.

– Özünüzü təqdim edin.

– Kasandra fon Hammersman...

– Rob, – mayor Hofmanın səsi onu xatirələrindən ayırdı, – nədənsə, son zamanlar çox fikirli görünürsən. Hər şey qaydasındadır?

– Hə, – deyə kədərlə cavab verdi.

– Mən bu gecə, nəhayət ki, uzun müddət sonra kluba getməyə hazırlaşıram. Orada tək qalmaq istəmirəm və sənin də mənimlə gəlməyini çox arzu edirəm.

– Henk, mən... – leytenant qəmgin halda fikrini bitirməyə hazırlaşırdı ki, dostu onun sözünü kəsdi:

– Qulaq as, Robi, – bir qədər sərt şəkildə müraciət etdi, – sən gənc bir insansan və çox xarizmatiksən. Sənin kimi bir pleyboyun bu günə qədər qadınsız qalması məni təəccübləndirir.

Henk Hofman ətrafa boylanıb heç kimin onları dinləmədiyinə əmin olduqdan sonra astaca iş yoldaşının qulağına pıçıldadı:

– Yoxsa sən geysən?

İş yoldaşı cavab olaraq başını ehmalca qaldırıb bir qədər əsəbi baxışlarla onu nəzərdən keçirdi. Otuz yaşına çatsa da, universitet tələbəsindən fərqlənməyən bu insan ondan fərqli olaraq həyat eşqi ilə dolu idi. Mühafizəkar bir ailədə doğulmasına baxmayaraq dini qayda-qanunlara o qədər də əhəmiyyət vermir, qarşısına çıxan bütün qadınlarla yatırdı.

– Sənin kimilər mənim niyə susduğumu haradan biləcək?!... – otuz iki yaşındakı leytenant astadan pıçıldadı. Görünür, Henk onun dediklərini başa düşməmişdi. Onun qəlbində ölənədək yalnız bir qadın olacaqdı. Kasandra fon Hammersman... O, ömrünün sonunadək heç bir qadına toxunmayacaqdı və ölənədək məhəbbətinə sadiq qalacaqdı. Bu ağrını ölənədək daxilində yaşatmağa məcbur idi. Məhz elə buna görə də qisas aldıqdan sonra baş verənləri unutmaq üçün Nyu-Yorkdan ayrılmaq qərarına gəlmişdi. Lakin yeni mühit də yaşadığı o acıları ona unutdura bilməmişdi.

– Yaxşı, Robert. Əgər qadınlarla olmaq istəmirsənsə, heç olmasa, içki içməyə gəl. Səni aparmaq istədiyim klub tamamilə başqa bir yerdir və gəlsən, buna qəti şəkildə əmin olacaqsan.

Bir qədər götür-qoy etdikdən sonra dostunun təklifinə razılıq vermək istədi. Fikrini bir az dağıtmaq heç də pis olmazdı.

– Yaxşı, Henk. Amma...

– Əla. Deməli, razılaşdıq. Narahat olma, gedəcəyimiz yer çox xoşuna gələcək.

– Nə zaman gedəcəyik?

– Elə bu gecə. Saat 12-dən sonra. Mənim zəngimi gözlə, kovboy!